bir xəyal qur...

Kitabın sahibi

Oxu tarixi



Ürək ver

PANDA PAN
VƏ
ALMA AĞACI

AMİN

Simurq

Redaktorlar:	İlahə ƏHMƏDOVA Toğrul MUSAYEV
Korrektor:	Turac ELDARQIZI
Tərtibatçı:	Zülfi XƏLİLOV
İllüstrator:	Aynur ABDULLAYEVA

Amin
PANDA PAN VƏ ALMA AĞACI

Bakı, “Simurq” Nəşriyyatı – 2026, 72 səh. / III nəşr

© Amin / 2023
© Parlaq İmzalar MMC / 2023
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Simurq Nəşriyyatı | 15
Amin | 5

SİMURQ – Parlaq İmzalar MMC-yə məxsus markadır.

www.parlaqimzalar.az
simurq@parlaqimzalar.az
facebook.com/simurqkitab
0559697259 / 0559897259

Mətbəə: “AVE PRİNT” MMC
SENTYABR / 2026

Amin 1987-ci il iyunun 30-da Zəngilan rayonunda anadan olub. 2005-2009-cu illərdə ADİU-da Beynəlxalq iqtisadi münasibətlər, 2018-2021-ci illərdə isə ADPU-da Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası üzrə ali təhsil alıb. Yaradıcılığa şeirlə başlasa da, ilk kitabı həm uşaqlar, həm də böyüklər üçün yazdığı "Tuflinlər" hekayəsidir. Kitab oxucular tərəfindən böyük maraqla qarşılanıb və dəfələrlə nəşr olunub.

Amin heyvanların meşə əhvalatlarından bəhs edən silsiləvi kitablar da yazır. Hazırda bu seriyadan üç kitab çap olunub: "Dovşan nə üçün Yeni il şənliyinə qatılmadı?", "Ayı nə üçün qış yuxusuna getmədi?", "Qorxulu meşəyə kim gedə bilər?"

Müəllifin dostluqdan, cəsarətdən, sevgidən bəhs edən "Azel" kitabı da mövzusu, təhkiyə tərzi ilə oxucuların sevimli kitablarından biridir.

Bu gecə, bu gecə
bu qəmli oğlanın, qara oğlanın
könlünü sındırmaq, qəlbini qırmaq
bir bülbül yuvası uçurtmaq kimi.

Vaqif Bayatlı Odər



Alma meşəsi necə yarandı?

1

Bəzən hər kəsdən, hər şeydən küsüb-inciyirik. Bu hamımızın başına gəlir. Bir dəfə də Panda Panın başına gəlmişdi. O da hamıdan küsmüşdü. İncimişdi. Öz-özünə tez-tez gileylənirdi.

“Mənə niyə deməmisiniz eee. Mənə, Pana. Mən də sizinlə gedərdim. Gedəndə nə olur ki?! Mən sizinlə o qədər yerə getmişəm ki. Mən sizi o qədər yerə çağırmışam ki. Çağırsaydınız, nə olardı. Yerinizi dar eləməyəcəkdim ki. Günəşinizi əlinizdən almayacaqdım ki...”

Günəşə baxmağa Panı çağırmamışdılar deyə həm qanı qara idi, həm də küskün. O da acığından meşəyə sarı üz tutdu. Sıx meşənin qaranlığında gözdən itdi. Daha doğrusu, qaranlıq onu ağuşuna aldı.

Pan əsəbləşəndə, qəlbi qırılanda meşədə təktənha gəzməyə gedir. Qəribədir, kədərli anında hansısa bir işi sevirsən... Pan bir dəfə meşədə tək-tənha dolaşmışdı. Ancaq bu, çoxdan olmuşdu. İydə ağacı çiçəkləyən vaxt kimsə gəlib iydənin budaqlarını sındırmışdı. Pan da buna əsəbləşmişdi, əsəbləşmişdi, sonra küsmüşdü. "Burda söhbət məndən getmir, burda söhbət ağacdan gedir, burda söhbət ağacdan getmir, burda söhbət məndən gedir" gah elə deyib susurdu, gah da belə deyib. Pan pis olmuşdu. Çünki bunu dostlarından heç gözləmirdi. Həm də iydə onun üçün əziz idi, xatirəsi var idi.

Yolda öz-özünə deyirdi: "Məni heç kim istəmir, məni heç kim sevmir, məni heç kim görmür. Məni heç kim eşitmir. Əgər məni heç kim görmürsə, heç kəs axtarmırsa, həyatın, yaşamağın nə mənası var, nə marağı var?! Heç kəs məni dinləmir. Heç kəs mənlə söhbət etmir, heç kim mənlə dost olmur. Söhbət etsələr də, ötəri – ancaq "salam", "necəsən", "kefin necədi", "sağol-çoxsağol". Heç kim ürəyimdən keçənləri soruşmur, heç kəs mənə ürəyini açmır, heç kim sirrini, gizlini-

ni mənimlə paylaşmır. Ancaq mən elə deyiləm... Bilsən necə pisdir kiminsə sirdaşı olmamaq, kiminsə dostu olmamaq". Sevgisizlik, soyuqluq, laqeydlik, yadlıq, etinasızlıq, yorğunluq, əzginlik – bu düşüncələr ürəyini sıxmağa başladı...

Panda Pan heç yerə tələsmirdi. Ona görə ləngər vura-vura yeriyirdi. Yerişinin səliqəsi pozulmuşdu. Bəziləri hirslənəndə yavaş-yavaş, bəziləri yerə vura-vura, bəziləri də tez-tez yeriyir. Pandanın içində acıq yox idi, əslində, heç nə yox idi. Böyük bir boşluqdan savayı...

"Mən tənha bir pandayam".

Meşədə hava azca sərin idi. Arabir meh əsirdi. Pandanın mehdən xoşu gəlirdi, çünki meh özü ilə gözəl qoxu gətirirdi. Panda bu qoxuları tanıyırdı. Hansı ağacın, hansı çiçəyin, kimin-kimsənin ətri-qoxusu olduğunu bilirdi.

Hamı bilirdi ki, Panda qoxuya qarşı çox həssasdır. Bir dəfə meşədəkilərə: "Dünən burnuma pis iy dəyib, hələ də getmir... – deyə zarafat etmişdi. – Elə bil iy bütün içimə dolub. Qorxuram iy burnumdan heç getməsin".

Bir neçə gün bundan qabaq möhkəm külək əsmişdi. Meşənin qoca ağaclarından biri aşmışdı.

Meşədə bir ağac aşanda quşların xatirəsini qurdların xatirəsi əvəzləyir.

Sarı Tülkü – hamının dəcəl dostu həmin qoca çinar ağacının üstündə oturmuşdu. O, gözünü uzağa zilləmişdi. Gözü yol çəkirdi.

Bu vaxt Panda oradan keçirdi. Başı öz dərdinə qarışmışdı deyə tülkünü görmədi. Tülkü gözləyirdi ki, Panda ona salam verəcək. Ancaq umduğu baş tutmadı.

"Kaş məni də sevən olaydı... Kaş mənə də dəyər verən olaydı... Kaş mənə ürəyini açan biri olaydı, kaş məni də çağıran olaydı, dur gəl deyən olaydı... Mənə vaxt ayıran, mənimlə oynamaq istəyən biri... Mənimlə, mənimlə, çoxluca mənimlə..."

Tülkü heç nə demədi. "Yəqin, nəsə dərdi var, ona görə belə fikirlidi. Qoy bir az tək gəzsin, sonra gedib hal-əhval tutaram. Danışdırar, kefini açaram. Axşam da qonaq çağıraram. Onda kefi düzələr". Çoxdandır Panda ilə axşamlaşmırdı. Onun üçün darıxmışdı.

Beləcə, Tülkü onu baxışları ilə ötürdü.